*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**



# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 17 yanvar 2018-ci il № 4 (2220) Qiyməti 25 qəpik

# Ali Baş Komandanın istənilən əmrini yerinə yetirməyə hər an hazırıq!



*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin qürurla dediyi "Azərbaycan güclü dövlətdir və onun güclü ordusu vardır" kəlamı bir azərbaycanlı gənci kimi məni də həmişə qürurlandırıb.*

Biz də əmin idik ki, Azərbaycan güclü dövlətdir. İndi əsgərik. Hərbi xidmətin ilk aylarından bir daha əmin olduq ki, həqiqətən, Azərbaycanın güclü ordusu vardır. Hər birimiz bu ordunun əsgəri olmağımızla fəxr edirik. Ordunun gücü döyüş texnikaları və silahlarla birlikdə əsgərin döyüş hazırlığının səviyyəsindən də asılıdır. Buna görə də hər birimiz komandirlərimizin, zabitlərin bütün əmr və göstərişlərini məsuliyyətlə yerinə yetiririk.

Bu günlərdə Nazirlər Kabinetində 2017-ci ilin yekunlarına həsr olunmuş iclasda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dedikləri əsgər kimi, vətəndaş kimi bizi daha da ruhlandırdı, qələbə əzmimizi daha da artırdı: "Azərbaycan Ordusu bundan sonra da gücələnəcək və istənilən tapşırığı yerinə yetirməyə hazırdır" kəlamı bizi 2016-cı ilin aprel döyüşlərinə yenidən köklədi. Yeni hərbi hissələrin inşası və əsaslı təmiri, yaradılan şərait, ordumuzun maddi-texniki bazasının möhkəmləndirilməsi şəxsi heyətin döyüş və mənəvi hazırlığını kifayət qədər yüksəldib. Ali Baş Komandanın bir əmri kifayətdir ki, torpaqlarımızı işğaldan döyüşlə azad edək.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev nitqində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli istiqamətində danışıqları, Azərbaycanın sülh tərəfdarı olmasını qeyd edərək birmənalı şəkildə bildirdi ki, Azərbaycan öz prinsipial mövqeyindən geri çəkilməyəcək və ölkəmizin ərazi bütövlüyünün bərpası bizim üçün əsas məsələdir.

Torpaqlarımız işğaldan azad ediləcəkdir, Azərbaycanın ərazi bütövlüyü təmin olunacaqdır. Biz bu inamın əsgəriyik.

Bir neçə ay əvvəl keçirilən irimiqyaslı təlimlər də təsdiqlədi ki, Azərbaycan Ordusu yüksək döyüş və mənəvi-psixoloji hazırlığa malikdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev nitqində qeyd edir ki, dünya dövlətləri Azərbaycanın mövqeyini dəstəkləyir, yəni etiraf edirlər ki, Ermənistan Azərbaycanın torpaqlarını işğal edib. Dünya dövlətləri onu da bilirlər ki, ölkə Prezidentinin dediyi kimi, Azərbaycan bu vəziyyətlə barışmayacaqdır. Biz bu qətiyyətin əsgəriyik.

Hərbi xidmətimizin ilk vaxtlarından dostlaşdığım əsgərlərdən bir neçəsi müvəqqəti işğal rayonlarımızdandır. Onların könül qübarını biz də yaşayırıq. Ali Baş Komandan döyüş əmri verərsə, dostlarımızın əzizlərinin, ümumiyyətlə, qaçqınların doğma ocaqlarına qayıtması üçün mərdliklə, cəsarətlə döyüşəcəyik.

Biz də inanırıq ki, torpaqlarımız işğaldan azad ediləcək. İstəyirik ki, biz də qalib əsgərlərin sırasında olaq.

Ali Baş Komandanın istənilən əmrini yerinə yetirməyə hər an hazırıq!

Biz Azərbaycan əsgəriyik!

Biz qalib əsgər olacağıq!

**Əsgər**
**Elmar EMİNOV,**
**"N" hərbi hissəsi**



Ali Baş Komandanın tapşırıqları Azərbaycan Ordusunun şəxsi heyətinə çatdırılır

2-ci səhifədə



"Bayrağımız işğaldan azad edəcəyimiz torpaqlarda da dalğalanacaq"

3-cü səhifədə



Xalq Cümhuriyyəti dövründə ordu quruculuğu

4-cü səhifədə



20 Yanvar - qəhrəmanlıq tariximiz

7-ci səhifədə

# Kadr orqanı işçilərinin təlim-metodik toplantısına yekun vuruldu

*Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi döyüş hazırlığı planına əsasən, hərbi hissə və bölmələrin xüsusi təyinatlı təhsil müəssisələrinin kadr orqanı işçilərinin üçgünlük təlim-metodiki toplantısı keçirildi.*



Ümummilli Liderimizin və ölkəmizin ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsinin yad edilməsi və Dövlət himninin səsləndirilməsi ilə başlanan tədbirdə çıxış edən Müdafiə nazirinin şəxsi heyət üzrə müavini - Şəxsi Heyət Baş İdarəsinin rəisi general-leytenant Kərim Vəliyev Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi altında ötən ildə Azərbaycan Ordusunda islahatların uğurla həyata keçirildiyini qeyd etdi.

Nazir müavini son vaxtlar ordu rəhbərliyi tərəfindən Azərbaycan Ordusunun döyüş qabiliyyətinin gücləndirilməsi, hərbi hissə və bölmələrin maddi-texniki təminatının yüksəldilməsi, həmçinin şəxsi heyətin sosial-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində aparılan geniş islahatlardan söhbət açdı. O qeyd etdi ki, orduda aparılan ştat-struktur dəyişiklikləri yalnız ölkənin müdafiə qabiliyyətinin gücləndirilməsi və hərbi bölmələrin daha da təkmilləşdirilməsi məqsədilə həyata keçirilir.

Natiq çıxışında ordumuzun komplektləşdirilməsinin keyfiyyətcə yeni mərhələyə qədəm qoyduğunu da bildirdi. "Azərbaycan Ordusunda həyata keçirilən uğurlu islahatlar son vaxtlar ordumuzun sıralarına qəbul olmaq istəyənlərin sayını da artırıb. Hərbi hissələrin komplektləşdirilməsi düşünülmüş və planlı şəkildə həyata keçirilir. Artıq Azərbaycan Ordusunun şəxsi heyətinin böyük əksəriyyəti peşəkar hərbi qulluqçularla komplektləşdirilib. Ordunun zabit heyəti ilə komplektləşdirilməsi məsələsində yüksək biliyə, intellektual səviyyəyə və digər yüksək keyfiyyətlərə malik olanlara önəm verilir".

General-leytenant Kərim Vəliyev Ali Baş Komandan İlham Əliyevin bu günlərdə Nazirlər Kabinetinin iclasındakı çıxışına da toxundu: "2018-ci il dövlət və dövlətçilik baxımından əhəmiyyətli ildir. Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyev yenə də ordumuzun fəaliyyətini yüksək qiymətləndirdi. Ali Baş Komandan 2018-ci ili "Azərbaycan Xalq Cümhuriyyəti ili" elan



etdi. Bildiyiniz kimi, 2018-ci ildə Azərbaycan Ordusunun yüzillik yubileyi də qeyd olunacaq. Eyni zamanda Ali Baş Komandanın tapşırığına əsasən, eləcə də Müdafiə Nazirliyi rəhbərliyinin təsdiq etdiyi plan və direktivlərin həyata keçirilməsi məqsədilə 2018-ci ildə də ordu quruculuğu sahəsində işlər davam etdiriləcək. Ona görə əminliklə deyə bilərik ki, ən müasir silah və döyüş vasitələri ilə təchiz edilmiş, yüksək vətənpərvərlik ruhuna malik, mənəvi-psixoloji cəhətdən hazırlıqlı Azərbaycan Ordusu Ali Baş Komandanın istənilən əmrini yerinə yetirməyə tam hazırdır".

Toplantıda şəxsi işlərin tərtibatı, aparılması, saxlanılması və göndərilməsi, zabit və gizirlərin (miçmanların) şəxsi vəsiqələrinin verilməsi, kadr orqanlarında aparılan səfərbərlik üzrə sənədlərin doldurulması, şəxsi heyətin əmr layihələrinin hazırlanması qaydaları, hərbi qulluqçuların statusu haqqında yeni qanun layihəsi və s. sahələr üzrə çıxışlar dinlənildi.

Sonda 2018-ci ildə kadr orqanlarının işi üzrə müvafiq tapşırıqlar bir daha tədbir iştirakçılarının nəzərinə çatdırıldı.

**Kapitan**
**Məhəmməd ƏLİYEV,**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**

# Ali Baş Komandanın tapşırıqları Azərbaycan Ordusunun şəxsi heyətinə çatdırılır

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2017-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında dövlətimizin başçısının nitqi Azərbaycan Ordusunun şəxsi heyətinin böyük marağına və vətənpərvərlik ruhunun daha da yüksəlməsinə səbəb olub.*



Birlik, birləşmə, hərbi hissə və xüsusi təyinatlı təhsil müəssisələrində keçirilən ictimai-siyasi hazırlıq dərsləri çərçivəsində bu iclasda Azərbaycanın ötən ildə əldə etdiyi nailiyyətlər, ölkəmizin uğurlu inkişafı, qarşıda duran vəzifələr barədə səsləndirilən fikirlər, xüsusən də Ali Baş Komandanın Azərbaycan Ordusu qarşısında qoyduğu tapşırıqlar şəxsi heyətin diqqətinə çatdırılır.

Keçirilən tədbirlərdə vurğulanıb ki, dövlətimizin başçısının düşmənlərimizə, Ermənistanın havadarlarına, dövlətimizə qarşı çıxan qüvvələrə kəskin mesaj olan nitqi Azərbaycanın ərazi bütövlüyünü təmin etmək üçün Ali Baş Komandanın əmrinə hər an hazır olan Azərbaycan əsgərinin döyüş ruhunu, torpaqları işğaldan azad etmək əzmini daha da artırıb.

**Müdafiə Nazirliyi**
**Mətbuat Xidməti**

# Azərbaycanın Əfqanıstanda həyata keçirilən "Qətiyyətli dəstək" əməliyyatına töhfəsi yüksək qiymətləndirilib

Yanvarın 15-də Azərbaycan Respublikasının NATO yanında nümayəndəliyinin başçısı vəzifəsini icra edən Qaya Məmmədov ilə NATO-nun Avropadakı Silahlı Qüvvələrinin ali komandanı ordu generalı Körtis Skaparroti arasında görüş olub.

Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Q.Məmmədov Azərbaycanda aparılan müdafiə islahatları, NATO ilə qarşılıqlı operativ uzlaşmanın təmin edilməsi istiqamətində həyata keçirilən tədbirlər və regiondakı vəziyyət haqqında həmsöhbətinə məlumat verib.

General Skaparroti Azərbaycanın NATO ilə tərəfdaşlıqda əldə etdiyi tərəqqini və Əfqanıstanda həyata keçirilən "Qətiyyətli dəstək" əməliyyatına Azərbaycanın töhfəsini yüksək qiymətləndirib. NATO tərəfi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin NATO-ya 2017-ci il noyabrın 24-də səfəri zamanı verdiyi bəyanata uyğun olaraq, "Qətiyyətli dəstək" əməliyyatına əlavə qoşun göndərilməsinə görə təşəkkür ifadə edib.

Görüş zamanı qarşılıqlı maraq doğuran bir sıra digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində növbəti monitorinq keçirilib

ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq, yanvarın 16-da Ağdam rayonu Sarıcalı kəndinin yaxınlığında yerləşən Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində növbəti monitorinq keçirilib.

Monitorinqi Azərbaycan tərəfindən ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Gennadi Petrika və Saymon Tiller keçiriblər.

Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş və nəzarət olunan Azərbaycan ərazisində monitorinqi şəxsi nümayəndənin səhra köməkçiləri Mixail Olaru və Martin Şuster keçiriblər.

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***16 yanvar 2018-ci il.***

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 124 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonunun Şavarşavan, Voskevan kəndlərində və İcevan rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Quşçu Ayrım, Cəfərli kəndlərində və adsız yüksəkliklərdə, Berd rayonunun Çinari kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Tovuz rayonunun Ağdam, Koxanəbi, Qaralar kəndlərində və adsız yüksəkliklərdə, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Zamanlı kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Çiləbürt, Ağdam rayonunun Tağıbəyli, Şıxlar, Baş Qərvənd, Cəvahirli, Qaraqaşlı, Yusifcanlı, Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Aşağı Veysəlli, Qobu Dilağarda, Qərvənd, Qaraxanbəyli, Aşağı Seyidəhmədli, Qorqan və Cəbrayıl rayonunun Nüzgar kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

Ön xətdən reportaj

# “Bayrağımız işğaldan azad edəcəyimiz torpaqlarımızda da dalğalanacaq!”

*Qış fəslidi. Hər bir fəsil kimi qış da özünəməxsus gözəlliyi, insanlara bəxş etdiyi əhval-ruhiyyəsi ilə fərqlənir. Bəyaz qış havasında meşədə ova çıxmaq adama sehrli nağıl təsiri bağışlayır. Hər tərəf ağappaq örpəyə bürünür, ətrafa çökən sükutu pozmaq istəmirsən. İrəlilədikcə ayağının altında qalan yumşaq qar xırıldayaraq yapıxır, lakin yağan qar arxanca əmələ gələn ləpirləri bir azdan tamam yox edir. Bir-birini tamamlayan qış mənzərələrinin əsrarəngiz gözəlliyindən doymaq olmur.*

## Ali Baş Komandan İlham ƏLİYEV:

*Bu gün Azərbaycan Ordusu öz üstünlüyünü göstərir. Bizdə olan vətənpərvərlik ruhu, döyüş qabiliyyəti, texniki imkanlar, əlbəttə ki, üstünlüyümüzü şərtləndirir. Azərbaycan Ordusunun arsenalında mövcud olan texnika, silah-sursat Dağlıq Qarabağda və Ermənistanda istənilən hədəfi yüksək dəqiqliklə məhv edə bilər.*



Yolumuzun üstündə qar topu oynayan uşaqları görüb onlara yaxınlaşıram. Uşaqların əllərində qartopu vardı, bir-birinə atmaq istəsələr də, məni görüb dayandılar. Onların yanında bir ağsaqqalı görüb həmsöhbət oluram. Öyrənirəm ki, əslən Kəlbəcərdəndir və nəvələri ilə kənd həyatı yaşamağı çox sevir. "Bu kəndə gələndə elə bil ürəyim açılır. Ağır bir dərddir ki, doğma torpağıma, elimə, obama əlim çatmır. Doğulduğum yerlər yadıma düşəndə az qala ürəyim param-parça olsun. Ermənilər bizim başımıza gətirdiyi əzabəziyyətlərə görə mütləq cəzalarını alacaqlar. Azərbaycan Ordusunun gücünə inanıram və inanıram ki, işğalda qalan torpaqlarımızı tez bir zamanda yenidən bizə qaytaracaq."

Ön xətdə yerləşən bölmədəyik. Gizir Vasif Nəsibov şəxsi heyətə təlimat verir. Şəxsi heyətə silahla davranış və təhlükəsizlik qaydalarına düzgün riayət etmələrini, xidmətlərində ayıq-sayıq olmalarını, düşməni daim nəzarətdə saxlamağı, vəzifə borclarını dəqiq yerinə yetirmələrini, hər hansı bir hadisə baş verərsə, rabitə vasitəsi ilə dərhal məlumat verməyi və digər tapşırıqlarını verir. Şəxsi heyət döyüş növbətçiliyinə yola düşür. Biz də səngərə daxil oluruq. Səngər boyu irəlilədikcə qarşımızda gedən əsgərlərin addım səsi məni xəyallara aparır. Sanki bu addım səsləri ilə növbəni dəyişməyə yox, irəli, torpaqlarımızı işğaldan azad etməyə, düşməni yurdumuzdan birdəfəlik qovub çıxarmağa gedirik.

"Yoldaş gizir, növbədə olduğum zaman heç bir hadisə baş verməyib" sözləri məni xəyallarımdan ayırır. Əsgərlər növbəni dəyişdikdən sonra gizir V.Nəsibovla həmsöhbət oluram. Əslən Ağdam rayonundan olan, 2009-cu ildən ordu sıralarına müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi qatılan və 2017-ci ildə müvafiq kursu bitirdikdən sonra gizir kimi xidmətini davam edən müsahibim də erkən çağlarından hərbçi olmaq arzusu ilə yaşayıb. “Gənc yaşlarımdan hərbçi olmaq istəmişəm. Bu şərəfli peşənin sahibi olaraq xalqıma, millətimə xidmət etmək, hər zaman torpaqlarımızı düşmənlərdən müdafiə etmək istəmişəm. Bu qərarımı valideynlərimə bildirəndə atam mənimlə fəxr etdiyini demişdi. Onun mənə öyüd-nəsihətləri yaddaşıma həkk olunub. İlk dəfə hərbi formanı əynimə geyəndə çox sevindim. Və özümə söz verdim ki, vəzifə borcumu daim şərəflə yerinə yetirəcəm".

Gizir onu da bildirir ki, Vətənimizi, xalqımızı qoruyan, bir an belə fikirləşmədən Vətən üçün canlarından keçməyə qadir olan əsgərlərlə xidmət etməyi özünə şərəf bilir.

Sonra əsgərlərimizin fikirlərini öyrənmək üçün onlara yaxınlaşıram. Döyüş növbətçiliyini təhvil verən, əslən Cəbrayıl rayonundan olan əsgər Miraslan Kazımov ali təhsilli olduğunu və atasının Qarabağ döyüşlərində iştirak etdiyini qeyd edir. "Vətən anamızdır və mən də əsgər yoldaşlarımla birgə Vətənə borcumuzu ödəmək üçün istənilən an torpaqlarımızı hərb yolu ilə geri qaytarmaq əzmindəyəm.”

Şəmkir rayonundan ordu sıralarına çağırılan əsgər Murad İbrahimovla tanış oluram. Ön xətdə xidmət etdiyi üçün qürur duyduğunu bildirir. "Düzdür,



ön xətdə xidmət etmək asan deyil, lakin olduqca şərəflidir. Mən həmişə arzulamışam ki, ön xətdə xidmət edim və torpaqlarımızı işğaldan azad edən oğulların sırasında olum. Yadımdadı, babam hər zaman mənə Qarabağın gözəlliklərindən danışardı və danışdıqca gözləri yaşarardı. Deyərdi ki, dünyanın heç bir yeri Laçını, Kəlbəcəri, Şuşanı əvəz edə bilməz. Mən də əsgər yoldaşlarım kimi Ali Baş Komandan İlham Əliyevin döyüş əmrini gözləyirəm, torpaqlarımızı işğaldan azad etməyə hər an hazıram.”

Əsgər Kamran Nəzərəliyev isə Bakı şəhərindəndir və manqa komandiri vəzifəsində xidmət edir. Hərbi xidmətə gəlməzdən əvvəl 6 il güləş idman növü ilə məşğul olduğunu öyrənirəm. Bir neçə mötəbər yarışda iştirak edib və Azərbaycanın Dövlət bayrağını yüksəklərə qaldıranlardan biri olub. "İdmanla məşğul olduğum müddətdə hər zaman arzulamışam ki, erməni idmançısıyla üzləşim və ona göstərim ki, biz hər sahədə onlardan üstünük. İstəyim baş tutdu, 2013-cü ildə Gürcüstanda erməni idmançısına qalib gəldim. Üçrəngli bayrağımızı tezliklə Xankəndidə, Xocalıda, Laçında və digər işğalda olan torpaqlarımızda da dalğalandıracağımız günü səbirsizliklə gözləyirəm".

Əsgər Murad İbrahimov isə Salyan rayonundan ordu sıralarına çağırılıb. Torpaqlarımız uğrunda canlarından keçənlərin qisasını almayınca özünə rahatlıq tapa bilməyəcəyini deyən əsgər bildirir ki, Vətən, torpaq yolunda fədakarlıq göstərmək, şəhid olmaq şərəfdir".

- Mən isə orduya Bakı şəhərindən çağırılmışam, - deyən əsgər Adil Quliyevə görə, Vətən sevgisi ilahi bir sevgidir. "Düşmənə olan nifrətimiz sonsuzdur. Torpaqlarımızı Ali Baş Komandanın əmri ilə istənilən an işğaldan azad etməyə hazırıq, çünki yüksək döyüş əhval-ruhiyyəmiz var. Burada bizlər üçün hər cür şərait yaradılıb."

Ata-babalarımızdan əmanət olaraq aldığımız, üzərində xoşbəxt və firavan yaşadığımız, yer üzünün cənnəti olan bu gözəl yurdumuzu qorumağa və onu müdafiə etməyə hər an hazır olmalıyıq. Çünki Vətənimiz şəhidlərimizin uğrunda can verdikləri müqəddəs torpaqdır!



**Leytenant**
**Orxan HÜSEYNLİ,**
**"Azərbaycan Ordusu"**

*Azərbaycan Ordusu - 100*

# Xalq Cümhuriyyəti dövründə ordu quruculuğu

(I məqalə)



*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə 2018-ci il "Azərbaycan Xalq Cümhuriyyəti ili" elan edildi. Bu, 100 ilin tarixinə, Azərbaycanın dövlətçilik tarixinə böyük ehtiramdır. Şərqdə ilk demokratik cümhuriyyət olan Azərbaycan Demokratik Respublikası xalqımızın dövlətçilik tarixində özünəməxsus dəyərlər miras qoydu. Ulu öndərimiz Heydər Əliyev onu həmişə yüksək dəyərləndirirdi.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamında deyilir: "...Azərbaycan Xalq Cümhuriyyəti zəngin dövlət quruculuğu təcrübəsi ilə milli dövlətçilik tarixində silinməz izlər qoyub, xalqın qəlbində azadlıq və istiqlal duyğularını gücləndirməklə respublikanın gələcək müstəqilliyi üçün etibarlı zəmin hazırlayıb". Bu zəmin 1991-ci ildə gerçəkləşdi - Azərbaycanın dövlət müstəqilliyi bərpa olundu...*

*Azərbaycan Xalq Cümhuriyyəti ili həm də Azərbaycan Ordusunun 100 illik yubileyi ilidir. 1918-ci ildə yaradılan Azərbaycan Ordusu ilə bağlı tarix elmləri doktoru, Silahlı Qüvvələrin Hərbi Akademiyasının dosenti, ehtiyatda olan polkovnik Mehman Süleymanovun bu məqaləsi, sərəncamda qeyd olunduğu kimi, ölkədə keçiriləcək silsilə tədbirlərin tərkib hissələrindəndir. Arxiv materialları əsasında hazırlanan məqalələrdən birini təqdim edirik.*

**"Azərbaycan Ordusu"**

Azərbaycan Xalq Cümhuriyyətinin mövcud olduğu 23 ay ərzində ölkənin müdafiəsinin təşkili, ordunun formalaşdırılması sahəsində uğurlu işlər görüldü. Xalq Cümhuriyyəti Azərbaycanın XX əsr tarixinin parlaq səhifələrindən biridir. Bu işlərin və əldə edilmiş nəticələrin öyrənilməsi, ümumiləşdirilməsi həm dövrün tarixinin tədqiqi, həm də ordu quruculuğu sahəsində ənənənin bərpası və ondan düzgün nəticə çıxarılması baxımından elmi və praktiki əhəmiyyətə malikdir.

Azərbaycanın istiqlaliyyətinin elan olunduğu tarixi şərait, onun qərar tutduğu bölgədə cərəyan edən proseslər xalqın müstəqilliyinə real dayaq ola biləcək ordunun formalaşdırılmasını tələb edirdi.

Hələ Türkiyə hərbi qüvvələri Azərbaycanda olarkən başlamış ordu quruculuğunu yenidən canlandırmaq və onu daha səmərəli aparmaq üçün 1918-ci il oktyabrın 23-də respublika hökumətinin iclasında Hərbi Nazirliyin yaradılması qərara alındı. Nazirlər Şurası tərəfindən belə bir qərar 1918-ci il noyabr ayının 1-də imzalandı. Yeni şəraitdə Azərbaycanın ərazi bütövlüyünün qorunması tamamilə Hərbi Nazirliyin üzərinə düşməli idi. Bu struktur hökumətin qarşısında dayanan tarixi vəzifələrin həllində çox mühüm rol oynadığından ona rəhbərliyi ilk vaxtlar Nazirlər Şurasının sədri F.Xoyski öz üzərinə götürdü. Tam artilleriya generalı Səməd bəy Mehmandarov nazir müavini təyin edildi və Nazirliyin formalaşdırılması ona tapşırıldı.

Cəmiyyət quruculuğunun bütün sahələrində olduğu kimi, ordu quruculuğunun da özünəməxsus obyektiv qanunauyğunluqları vardır və bu qanunauyğunluqlara riayət edilməməsi ordunun formalaşdırılmasında ciddi çətinlik yarada bilər. Bütün dövrlərdə, bütün ordular üçün ümumi olan qanunauyğunluqlar eyni zamanda milli ənənələrdən, xalqın mənəvi potensialından, ölkənin iqtisadi, siyasi, demoqrafik imkanlarından, coğrafi vəziyyətindən və s. irəli gələn xüsusiyyətləri də əhatə edir. Ordu quruculuğu üçün ümumi cəhətlər çoxluq təşkil etsə də, hər bir ölkədə bu prosesin həmin ölkəyə xas olan xarakterik xüsusiyyətləri də vardır. Azərbaycan Xalq Ordusunun qısa vaxt ərzində formalaşdırılmasının əsas səbəblərindən biri də bu idi ki, həmin prosesə rəhbərlik edən şəxslər ümumi nəzəri dəyərlər və əldə olan təcrübə ilə ordu quruculuğunun Azərbaycan şəraitindən irəli gələn xüsusiyyətlərini çox incəliklə və üzvi şəkildə birləşdirə bilmişdi. Hərbi Nazirlik bərpa edildikdən sonra bu istiqamətdə müəyyən çətinliklər də mövcud idi. Bir tərəfdən türk qoşunları Azərbaycanı yenicə tərk edirdilər. Cümhuriyyət ordusu quruculuğunun ilkin mərhələsi türk hərbçilərinin rəhbərliyi altında aparıldığından ordu daxilində onların dəstixətti qalmaqda idi. Digər tərəfdən Cümhuriyyət ordusunda xidmət edən yüksək rütbəli zabitlərin, demək olar ki, hamısı xidməti çar ordusu sıralarında keçmişdilər və rus ordusunun ənənələri ruhunda tərbiyə olunmuşdular. Cümhuriyyət ordusunun milli dəyərlər üzərində formalaşdırılması üçün ilk növbədə bu təsirlərin Azərbaycan şəraitinə uyğun gəlməyən tərəfləri aradan qaldırılmalı idi. Həmin problem Hərbi Nazirliyin mövcud olduğu təxminən il yarım ərzində ardıcıl olaraq həll edildi. Ordu quruculuğuna türk və rus təcrübəsinin güclü təsirə malik olmasına baxmayaraq Azərbaycanda milli zəminə söykənən bir ordu formalaşdırıldı və proseslərin sonrakı inkişafı da qonşu dövlətlərin ordu quruculuğu təcrübəsinin kor-koranə təkrarlanmamasının doğruluğunu təsdiqlədi.

1918-1920-ci illərdə Azərbaycanda ordu quruculuğunun başlıca aspektlərindən biri bu fəaliyyət sahəsinin dövlət quruculuğunun mərkəzində dayanması idi. Müstəqilliyin qorunması üçün düzgün seçilmiş siyasi-strateji xətt ölkənin müdafiə qabiliyyətinin möhkəmləndirilməsinə real zəmin yaratmışdı. Hərbi quruculuq məsələləri yeni cəmiyyət quruculuğunun bütün sahələri ilə sıx şəkildə tənzimlənir, bütün imkanların Azərbaycanın ərazi bütövlüyünün qorunmasına səfərbər olunması üçün təxirəsalınmaz və qəti addımlar atılırdı.



Həm ali qanunvericilik orqanı olan ölkə parlamenti, həm də icraedici orqan olan Nazirlər Şurası bu istiqamətdə öhdələrinə düşən vəzifələrə böyük məsuliyyətlə yanaşırdılar. Ölkə parlamenti mövcud olduğu dövrdə hərbi quruculuğun müxtəlif sahələri ilə bağlı 9 qanun layihəsini nəzərdən keçirmiş və müvafiq qərarlar qəbul etmişdi. Həmin qərarların hər biri dövlətin müdafiə gücünün artırılması üçün həm cari, həm də perspektiv əhəmiyyətə malik idi və bu qərarlar icraedici orqanların fəaliyyətinin istiqamətləndirilməsi üçün əsas kimi qəbul edilmişdi. Öz işini ölkə daxilində cərəyan edən proseslərlə sıx surətdə əlaqələndirən parlament dövlətin müstəqilliyinin qorunması sahəsində gərginlik yaradan məsələlərə dərhal reaksiya verir və bunları müzakirə obyektinə çevirirdi.

Hərbi Nazirliyin bərpa edilməsindən sonra ilk növbədə pərakəndə olan hissələri möhkəmləndirmək, onları vahid rəhbərlik altına gətirmək üçün mərkəzi hərbi idarəetmə orqanlarının təşkilinə diqqət yetirildi. Qısa müddət ərzində Hərbi Nazirliyin aparatı yaradıldı. Hərbi Nazirliyin təşkili barədə hökumət qərarından iki həftə sonra, noyabrın 15-də ordunun Ümumi qərargahının (Qlavnıy ştab) təsis edilməsi barədə S.Mehmandarovun müvafiq əmri imzalandı.

Mudros müqaviləsinin şərtlərinə görə müttəfiq dövlətlər adından Bakıya gəlməli olan ingilis qüvvələri komandanı general V.Tomson hələ Azərbaycana qədəm qoymamışdan əvvəl tələb edirdi ki, 1918-ci il noyabrın 17-dək türk qoşunları kimi Azərbaycan qoşunları da Bakı şəhərini tərk etsinlər. Çünki Tomson Bakı şəhərini istər iqtisadi baxımdan, istərsə də hərbi-siyasi baxımdan mühüm strateji mərkəz sayırdı və ona nəzarəti tamamilə öz əlində saxlamaq istəyirdi. O, müstəqil Azərbaycan hökumətini tanımaq istəmədiyi kimi onun nəzarəti altında olan hərbi qüvvələrə də etibar etmirdi. Ona görə 1918-ci il noyabrın 22-də Hərbi Nazirlik Gəncəyə köçdü və öz fəaliyyətini burada davam etdirdi. İngilis qoşunlarının komandanlığı Hərbi Nazirliyin Bakıdan kənarda fəaliyyət göstərməsinə etiraz etmirdi.

Bütün hökumət strukturlarının Bakıda yerləşdiyi halda, Hərbi Nazirliyin Gəncəyə köçürülməsi, şübhəsiz ki, bu strukturla hökumət orqanlarının əlaqələrində və bütünlüklə ordunun formalaşma prosesində çətinliklər yaradırdı. Bununla belə Hərbi Nazirliyin rəhbərliyinin səmərəli fəaliyyəti ordu quruculuğu prosesində bir ardıcıllıq yaratdı. Bu istiqamətdə düzgün siyasətin formalaşması və onun yerinə yetirilməsi üçün yüksək təşkilatçılıq işlərinin həyata keçirilməsi qısa zaman ərzində öz nəticəsini verdi. Həmin səmərəli fəaliyyətin nəticəsi idi ki, Cümhuriyyət ordusunun əsas qüvvələri də məhz Hərbi Nazirliyin Gəncədəki fəaliyyəti zamanı təşkil edilmişdi.

Hərbi Nazirlik yaradılana kimi mövcud olan hissə və birləşmələr başlıca olaraq Gəncə və Qarabağda yerləşdirilmişdi. Bu da tarixi şəraitlə və qoşun hissələrinin icra etdikləri vəzifələrlə bağlı idi. Hərbi Nazirlik Gəncədə yerləşəndən dərhal sonra, 1918-ci il noyabrın 27-dən dekabrın 3-dək ordu rəhbərliyi Gəncə və Ağdam ətrafında yerləşən hərbi hissələrə səfər etdi və oradakı vəziyyətlə şəxsən tanış oldu. Hərbi nazir hələ türk qoşunları Azərbaycanda olarkən təşkil eilmiş bu hissələrdə çox ciddi nöqsanlarla rastlaşdı və bu nöqsanları ümumiləşdirərək xüsusi əmr imzaladı və hissə komandirlərindən belə nöqsanların aradan qaldırılmasını tələb etdi. Hər şeydən əvvəl o, hissə və bölmə komandirləri qarşısında belə bir vəzifə qoydu: müstəqil Azərbaycan Ordusunda xidmət edən bütün şəxslərin dərhal Azərbaycan Respublikasına sədaqət andı içməsi təşkil edilsin.

1918-ci ilin sonu, 1919-cu ilin əvvəllərində Hərbi Nazirliyin rəhbərliyində və strukturunda qismən dəyişiklik edildi ki, bu da ordunun formalaşması prosesinə müsbət təsir göstərdi. Nazirlər Şurasının 25 dekabr 1918-ci il tarixli qərarı ilə tam artilleriya generalı Səməd bəy Mehmandarov Hərbi nazir təyin edildi. Hökumətin 29 dekabr 1918-ci il tarixli qərarı ilə general-leytenant Ə.Şıxlinski hərbi nazirin müavini təyin edildi. Bu qərar da Azərbaycan Ordusunun formalaşdırılması istiqamətində hökumətin qəbul etdiyi dəyərli qərarlardan biri idi. Çünki onların təcrübəsi və biliyi orduda quruculuq işlərinin səmərəli xarakter almasına zəmin yaratdı.

Hərbi Nazirliyin rəhbərliyi ordu və dövlət arasındakı münasibətlərin mahiyyətini kifayət qədər dəqiqliklə müəyyənləşdirmiş və bütün fəaliyyəti boyu ona riayət etmişdi. S.Mehmandarov əmrlərində dəfələrlə qeyd etmişdi ki, ordu heç bir siyasətə qarışmamalı, ona tapşırılan vəzifələrin icrası ilə məşğul olmalıdır. Məhz bu tələbi rəhbər tutmağın nəticəsi idi ki, respublika hökumətinin bir neçə kabineti təşkil edilsə də, Hərbi Nazirliyin rəhbərliyi dəyişməz qalmışdı. S.Mehmandarov və onun silahdaşlarının prinsipiallığı, ardıcıllığı bütün kabinetlər tərəfindən yüksək qiymətləndirilmişdi. Yeni yaranan hökumət kabinetlərinin rəhbərləri Hərbi Nazirliyin rəhbərliyini dəyişməz olaraq saxlamışdılar.

# Narkomaniya bəşəriyyət üçün bəladır

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təsdiq etdiyi "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2013-2018-ci illər Dövlət Proqramı"na əsasən, yanvarın 10-da Müdafiə Nazirliyi Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin təşkilatçılığı ilə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində tədbir keçirilib. Tədbirdə əvvəlcə xalqımızın ümummilli lideri Heydər Əliyevin və Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olan həmvətənlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət himni səsləndirilib.*





Seminarda çıxış edən Müdafiə Nazirliyi Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin sədri Abiyat Ağadadaşova bildirib ki, gənc nəslin sağlam ruhda tərbiyəsi dövlətin və cəmiyyətin əsas vəzifəsidir. "Bu gün biz hamılıqla dünyanı ağuşuna alan narkomaniyaya qarşı birgə mübarizə aparmalıyıq. Müasir dövrümüzdə insanlığa bir bəla olan "ağ ölüm"ə və onun fəsadlarına qarşı mübarizə ilə bağlı əhali, xüsusən də gənc nəsil arasında maarifləndirmə və təbliğat işlərinin aparılması istiqamətində var gücümüzlə çalışmalıyıq. Dövlət başçımızın narkotizmlə və narkobiznеslə mübarizəyə qarşı həyata keçirdiyi məqsədyönlü siyasətin nəticəsi olaraq artıq 20 ildən çoxdur ki, Azərbaycan narkomaniyanın yer kürəsində yayılmasının qarşısının alınmasına öz töhfəsini verir."

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının nümayəndəsi Söhrab Mansurov məruzəsində kursantlara narkomaniyanın törətdiyi fəsadlardan danışıb. Narkomaniyanın insanları sağalmaz xəstəliklər məngənəsində boğan "ağ ölüm" olduğunu bildirərək bu barədə geniş məlumat verib. Onun sözlərinə görə, narkomaniya yunan sözü olub, "narko" donub qalmaq, "maniya" psixi pozğunluq deməkdir. "Adından göründüyü kimi, bəşəriyyət uzun illərdir onun törətdiyi fəsadlar qarşısında aciz qalıb. Narkotik maddələrin qəbul edilməsi insanı fiziki və psixoloji cəhətdən məhv edərək millətin sağlam həyat tərzi üçün təhlükə yaradır. Narkomaniya yaddaş və təfəkkürü pozur, orqanizmin zəifləməsinə, qara ciyər və böyrəyin zədələnməsinə gətirib çıxarır. Həmçinin dəlilik, erkən ağlını itirmə, şüur itkisi, yuxusuzluq, iflic, sayıqlama, zəka və yaddaş pozğunluqları, qan zəhərlənmələri və hepatit kimi sonu ölümlə nəticələnən xəstəliklər yaradır."

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının nümayəndəsi Zaur Məmmədov isə statistik göstəricilərdən danışaraq bildirib ki, Beynəlxalq Səhiyyə Təşkilatının məlumatına əsasən, bu gün dünya əhalisinin 250 milyonu planetimizin ən qlobal problemlərindən birinə çevrilən, insanları sakitcə ölümün ağuşuna atan, genefonda sarsıdıcı zərbələr endirən bu ağır bəlanın əzabını çəkir. O qeyd edib ki, hər bir xalqın inkişafında sağlam, vətənpərvər, intellektual gənclik mühüm rol oynayır. "Ulu öndərimiz Heydər Əliyevin də dediyi kimi, gənclərimiz milli-mənəvi dəyərlərimizə sədaqət ruhunda tərbiyələndirilməli, vətənpərvər olmalıdırlar. Gənc nəslin tərbiyəsi isə ailədə, ictimai mühitdə və ümumtəhsil ocaqlarında formalaşır. Ailə institutu cəmiyyətimizin ən vacib dayağıdır. Bu dayağın möhkəm olması xalq və dövlətin də sağlam olması deməkdir."

Toplantıda çıxış edən digər qonaqlar bu bəlanın ölkəmizdən də yan keçmədiyini təəssüf hissi ilə bildirsələr də, Azərbaycanda sosial və iqtisadi vəziyyətin, təhsilin və ailə institutlarının möhkəmliyinin nəticəsi olaraq, qonşu ölkələrlə müqayisədə narkomaniyaya meyilliyin aşağı səviyyədə olduğunu vurğulayıblar.

Qeyd etmək lazımdır ki, ölkəmizdə narkotizmlə və narkobiznеslə mübarizənin əsası ilk dəfə olaraq ulu öndər Heydər Əliyev tərəfindən qoyulub. Dünyanın başı üzərində dolaşan bu dəhşətli ölüm kabusuna qarşı mübarizəni ümumdövlət vəzifəsi hesab edən dahi şəxsiyyət 26 avqust 1996-cı ildə "Narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə tədbirləri haqqında" fərman imzalayıb və bu problemin həllində keyfiyyətcə yeni və daha uğurlu mərhələ başlanıb.

**Leytenant
Mahmud MÖHBALIYEV,
"Azərbaycan Ordusu"**

*Gənc əsgərlərin hazırlığı*

# Məqsəd Vətənə layiqincə xidmət etməkdir

*Bu gün Azərbaycanda bütün sahələrdə olduğu kimi, ordu quruculuğunda da aparılan islahatlar müsbət nəticəsini verib. İstər şəxsi heyətin döyüş hazırlığı, istərsə də ruh yüksəkliyinin artırılması və maddi-məişət şəraitinin yaxşılaşdırılması üçün bütün imkanlar yaradılıb.*



Ordu sıralarına çağırılan gənclər Vətənə layiqincə xidmət etmək üçün hərbin sirlərinə dərindən yiyələnirlər.

Hərbi xidmətə gələn gənclər əvvəl tibbi müayinəyə cəlb olunurlar. Onlar bütün həkimlərdən keçəndən sonra tibbi kitabçalarında müvafiq qeydlər aparılır.

Həkim müayinəsindən sonra çağırışçılar psixoloqlarla söhbətlərə cəlb olunurlar. Gənclərlə ilkin tanışlıq zamanı onların psixi sağlamlıqlarının qiymətləndirilməsinə, şəxsi keyfiyyətlərinin aşkarlanmasına, hərbi xidmət şəraitinə uyğunlaşdırılmasına xüsusi diqqət ayrılır.

Növbəti mərhələdə isə çağırışçıların qeydiyyatı və bölgüsü aparılır. Onlar şəxsi heyətin uçotu bölməsinə təqdim olunaraq adlı siyahılar əsasında da yoxlanılır. Hərbi biletlərindəki məlumatlar dəqiqləşdirildikdən sonra müvafiq bölmələrə təyin olunurlar.

Soyuq qış aylarında hərbi hissəni daim isti su və istilik sistemi ilə təmin etmək üçün müasir tələblərə uyğun qazanxanalar fəaliyyət göstərir. Burada quraşdırılmış suqızdırıcılar vasitəsilə şəxsi heyət fasiləsiz istiliklə təmin olunur. Bundan əlavə, hərbi hissənin camaşırxanasında quraşdırılan müasir paltaryuyan, quruducu maşınlar və yataq ağlarının ütülənməsi üçün qurğular şəxsi heyəti həftə ərzində təmiz paltar və yataq ağları ilə təmin edir.

Hazırda hərbi hissələrin yeməkxanaları müasir tələblərə cavab verən soyuducu və dondurucu kameralarla təmin olunub. Bu kameralarda ət, balıq, toyuq məhsulları, meyvə, tərəvəz və digər ərzaq ehtiyatı saxlanılır. Yeməkxananın mətbəxində müasir avadanlıqlar quraşdırılıb ki, bu da bütün növ yeməkləri hazırlamağa imkan verir. Burada əsas üstünlük milli yeməklərə verilir.

Xanım aşpazlarımızın qayğı ilə hazırladığı yeməklər ev yeməyindən heç nə ilə fərqlənmir.

Şəxsi heyətin fiziki hazırlığı da ən vacib məsələlərdən biridir. Müasir idman şəhərciyində əsgərlərimiz günün nizam təlləblərinə uyğun olaraq hər gün səhər və axşam idman məşğələləri keçirlər.

Ordumuzun gücü xalqımızın qürurudur. Vətənə layiqincə xidmət etməyi qarşısına məqsəd qoyan Azərbaycan əsgərinin ən ali məqsədi isə ərazi bütövlüyümüzü bərpa etməkdir.

**"Azərbaycan Ordusu"**

## Azərbaycan tərəfi Sergey Lavrovun Dağlıq Qarabağ münaqişəsinin mərhələli həllinə dair açıqlamasını alqışlayır

Azərbaycan tərəfi Rusiyanın xarici işlər naziri Sergey Lavrovun Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin mərhələli həllinə dair açıqlamasını alqışlayır.

Bunu AZƏRTAC-a Azərbaycan Xarici İşlər Nazirliyinin Mətbuat Xidmətinin rəhbəri Hikmət Hacıyev deyib.

Xatırladaq ki, RF xarici işlər naziri Sergey Lavrov Moskvada keçirdiyi mətbuat konfransında Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi barədə sualı cavablandırarkən indi əsas məsələnin təmas xəttində vəziyyətin sabitləşməsi üçün əlavə addımlar atmaqdan ibarət olduğunu bildirib. O deyib: "Bu, həm də siyasi tənzimləməyə keçid üçün şərait yaradacaq. Bu məsələni bir sənəd vasitəsilə həmişəlik həll etmək mümkün deyil. Bu məsələyə mərhələli şəkildə yanaşmaq lazımdır. Mərhələli yanaşma münaqişənin qəti tənzimlənməsi və Dağlıq Qarabağın statusu ilə əlaqədar hansı məsələləri dərhal həll etmək mümkün olduğunu və hansı məsələlərin həlli üçün əlavə müzakirələrə ehtiyac olmasını göstərəcək, bunun yollarını müəyyən edəcək".

# Azərbaycan Ordusunun şəxsi heyəti ilə ictimai-siyasi hazırlıq sistemində keçirilən dərs

**Mövzu:** *Azərbaycan Respublikasında dövlətin gənclərə qayğı və diqqəti. 2 Fevral - gənclər günüdür.*

**Suallar:**

**1. Azərbaycan gəncliyi müstəqilliyimizin ilk illərində. Ümummilli lider Heydər Əliyevin Azərbaycan gənclərinə qayğısı və diqqəti.**

**2. Azərbaycan gənclərinin milli-mənəvi ruhda tərbiyəsi, onların problemlərinin həlli dövlətimizin diqqət mərkəzindədir.**

**3. Azərbaycanın müstəqilliyini qorumaq hər bir Azərbaycan gəncinin müqəddəs borcudur.**

*Azərbaycan gəncliyi müstəqilliyimizin ilk illərində. Ümummilli lider Heydər Əliyevin Azərbaycan gənclərinə qayğısı və diqqəti*

Tarixən hər bir xalq özünün xoşbəxt gələcəyə olan ümidlərini, ilk növbədə, gənc nəsillə bağlayır. Gənc nəslin yetişdirilməsi hər bir xalq üçün ən başlıca məsələdir. Çünki gənclər sosial-iqtisadi inkişafın aparıcı qüvvələrindən biri, cəmiyyətin islahatları hərəkətə gətirən qüvvəsi və yaşlı nəslin davamçısı hesab olunur, gənclər cəmiyyətin ən dinamik qüvvəsi olmaqla ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatda fəal iştirak edir, ölkədə baş verən bütün proseslərin mərkəzində dayanırlar.

Respublikamızın müstəqilliyinin ilk dövrlərində əhalinin bütün təbəqələri, sosial qrupları arasında müşahidə olunan milli oyanış, sosial-siyasi fəallıq gənclərdən də yan keçməmişdi. Sovet imperiyasına qarşı mübarizənin, o cümlədən Qarabağ hadisələri ilə bağlı təşəkkül tapmış xalq hərəkatının ön sıralarında gənclərimiz getmişlər. 1988-ci ildə erməni ekstremistlərinin Azərbaycana qarşı başladıqları hərbi təcavüzü dəf etmək üçün ilk özünümüdafiə dəstələrinin yaradılmasında və fəaliyyət göstərməsində gənclərin böyük xidmətləri olub.

Müstəqilliyimizin bərpası ilə Azərbaycan gəncliyində yeni prinsiplər, mənəvi dəyərlər, həyata yeni baxışlar sistemi formalaşmağa başladı. Məqsəd və vəzifələrinə, fəaliyyətin istiqamətlərinə, sosial tərkibinə görə bir-birindən fərqli, yeni, müstəqil gənclər təşkilatları yaranmağa başladı. Azərbaycanın müstəqilliyi, suverenliyi və ərazi bütövlüyünün qorunması, ölkədə hüquqi-demokratik dövlət quruculuğu prosesinin həyata keçirilməsi vəzifələri gənclərin ümummilli dövlət mənafeləri əsasında səfərbər olunması, vahid gənclər siyasiətinin hazırlanıb həyata keçirilməsi zərurətini ortaya atdı.

1993-cü ilin iyununda ümummilli lider Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışından sonra gənc nəslə diqqət və qayğı dövlətin ən mühüm fəaliyyət sahələrindən birinə çevrildi. Məhz həmin ildən etibarən Azərbaycanda dövlət gənclər siyasəti təşəkkül tapmağa başladı.

Ölkə rəhbərliyinə gəldikdən az sonra gənclərin problemləri ilə dərindən maraqlanaraq onların böyük bir qrupu ilə görüş keçirən ulu öndər Heydər Əliyev tərəfindən 26 iyul 1994-cü il tarixdə indiki Gənclər və İdman Nazirliyinin yaradılması haqqında Fərmanın imzalanması respublika gənclərinin fəaliyyətinin təşkilatlanması istiqamətində ilk addım oldu.

Cəmiyyətdə gənclərin rolunun genişləndirilməsi istiqamətində növbəti addım isə 1996-cı il fevralın 2-də ilk dəfə olaraq Müstəqil Azərbaycan Gənclərinin I Forumunun keçirilməsi oldu. Forumda gənclərin vəziyyəti və problemləri ətraflı müzakirə olundu. Əbədiyaşar Prezidentimiz Heydər Əliyev forum iştirakçıları qarşısında proqram xarakterli nitq ilə çıxış edərək müstəqil Azərbaycan Respublikasının gəncləri qarşısında konkret vəzifələr qoydu.

1997-ci il fevralın 1-də forumun birinci ildönümü münasibətilə gənclərin bir qrupunu qəbul edən Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev tərəfindən 2 fevralın Azərbaycan Gəncləri Günü elan edilməsi haqqında fərman imzalaması gənclərimizə göstərilən diqqət və qayğının daha bir parlaq nümunəsi oldu. Həmin vaxtdan etibarən hər il 2 fevral Azərbaycan gənclərinin bayramı kimi təntənəli şəkildə qeyd olunur.

1999-cu il martın 2-3-də gənclərin II forumu keçirildi. Forumun işində iştirak edən ulu öndər Heydər Əliyev gənclərə diqqət və qayğı göstərilməsinin vacibliyini bir daha vurğuladı, ayrı-ayrı dövlət orqanlarının qarşısında bu sahədə bir sıra vəzifələr qoydu. Forumun qəbul etdiyi sənədlər növbəti mərhələdə gənclərlə işin yeni əsaslar üzərində qurulmasını təmin etdi.

1999-cu il iyulun 29-da ümummilli lider Heydər Əliyev tərəfindən imzalanmış "Dövlət gənclər siyasəti haqqında" fərman dövlət gənclər siyasətinin həyata keçirilməsində mühüm mərhələnin başlanğıcı idi.

6 may 2002-ci ildə isə gənclərin hərtərəfli inkişafını təmin etmək, problemlərinin həlli və hüquqlarının müdafiəsi sahəsində daha təsirli tədbirlər görmək üçün "Gənclər Siyasəti haqqında" Azərbaycan Respublikasının Qanunu qüvvəyə mindi. Həmin qanuna əsasən, Azərbaycan Respublikasında gənclər siyasətinin əsas məqsədi - gənclərin sosial, fiziki, mənəvi və intellektual inkişafına, problemlərinin həllinə və hüquqlarının müdafiəsinə kömək göstərmək, imkan və bacarıqlarını reallaşdıra bilmək üçün şərait yaratmaqdır.

2003-cü il oktyabrın 13-də Azərbaycan gənclərinin III forumu keçirildi. Ümummilli lider Heydər Əliyev səhhəti ilə əlaqədar forumun işində irştirak edə bilməsə də, forum iştirakçılarına məktubla müraciət etdi. Həmin müraciətdəki "Bu gün iftixar və qürur hissi ilə bildirmək istəyirəm ki, müasir Azərbaycan gəncliyi milli-mənəvi dəyərlərimizi, doğma ana dilimizi, ata-babalardan qalan gözəl adət-ənənələrimizi göz bəbəyi kimi indi də qoruyub yaşadır" sözləri Azərbaycan gəncliyinə Ümummilli Lider tərəfindən verilən ən yüksək qiymətdir.

Ulu öndər Heydər Əliyev tərəfindən əsası qoyulan gənclər siyasətinin əsas məqsədi yeni nəslin fiziki, mənəvi-psixoloji cəhətdən sağlam yetişməsini təmin etmək idi. "Gənc istedadlar üçün xüsusi təqaüdlərin təsis edilməsi haqqında", "Azərbaycanın gənc istedadlarına dövlət qayğısı haqqında", "Dövlət gənclər siyasəti haqqında" qanun, fərman və sərəncamlar, həmçinin, "Gənc ailə", "İstedadlı yeniyetmələrin və yaradıcı gənclərin sosial, iqtisadi və s. problemlərinin həllinə yönəlmiş, onların öz qabiliyyətlərini inkişaf etdirmələrinə kömək edən Dövlət Proqramı" və digər proqramlar çərçivəsində ölkəmizdə gənclərin sosial-maddi şəraitinin yüksəldilməsi, ictimai fəallığının artırılması istiqamətində mühüm fundamental baza olub.

Ümumiyyətlə, ulu öndər Heydər Əliyevin əsasını yaratdığı gənclər siyasəti 5 mühüm istiqaməti ehtiva edirdi:

- Milli-mənəvi dəyərlərimizin qorunmasında gənclərin rolunu artırmaq, gənc nəslin tarixi köklərimizə bağlı olaraq vətənpərvərlik ruhunda tərbiyələndirilməsini təmin etmək;
- Gənclərin elmi, intellektual potensialının artırılması üçün ciddi təhsil və mədəni islahatlar həyata keçirmək;
- Gənclərin təşkilatlanmasını təmin etməklə, onları müstəqilliyimizin keşiyində vahid qüvvə kimi birləşməyə səfərbər etmək;
- Gənclərin dövlət idarəçiliyində rolunu əhəmiyyətli dərəcədə artırmaq və onların məsuliyyət hissini formalaşdırmaq;
- Azərbaycan dövlətinin beynəlxalq aləmə inteqrasiyasının yaratdığı imkanlardan gənclərin maksimum səviyyədə yararlanmasına möhkəm əsaslar yaratmaq.

Bunlar Ümummilli Liderin müəyyən etdiyi strateji hədəflər olub ki, bu gün də Azərbaycan gəncliyi bu hədəflərə doğru inamla irəliləyir.

*Azərbaycan gənclərinin milli-mənəvi ruhda tərbiyəsi, onların problemlərinin həlli dövlətimizin diqqət mərkəzindədir*

Ümummilli lider Heydər Əliyevin siyasi kursunun davamçısı, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev tərəfindən respublika gənclərinə münasibətdə həyata keçirilən tədbirlər müasir dövlət quruculuğu prosesində gənc nəsli daha da ön plana çəkir.

2003-cü ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin hakimiyyətə gəlişi ilə gənclər siyasəti mahiyyətcə yeni mərhələyə yüksəldi. "Siz bütün işlərdə mənə arxalana bilərsiniz. Mən də sizə arxalanıram" - deyən Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev bu sahədə də siyasi xətti ilə ulu öndər Heydər Əliyevin gənclər siyasətinə sadiqliyini təsdiq etdi. Məhz, 2005-ci ildə "Azərbaycan gəncliyi Dövlət Proqramının (2005-2009) təsdiq edilməsi haqqında" imzalanmış sərəncam gənclərə olan dövlət qayğısının davamı idi. Neft gəlirlərini insan kapitalına çevirən Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev bu işdə də gənclərin üzərinə böyük məsuliyyət qoydu və "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xaricdə təhsili üzrə Dövlət Proqramı"nı təsdiqlədi. Həmçinin, 2007-ci ilin ölkədə "Gənclər ili" elan edilməsilə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev gənclərin inkişafına nə qədər böyük önəm verdiyini ortaya qoymuş oldu. Hətta, 2011-ci ildə "Azərbaycan gəncliyi 2011-2015-ci illərdə" Dövlət Proqramının qəbul edilməsilə dövlətimizin başçısının "Bugünkü gənc sabah ölkəmizi idarə edəcək" tezisindən doğan gənclərə etimad və münasibətin əyani təzahürü oldu. Bunlarla yanaşı, gənclərin hərtərəfli inkişafı üçün Gənclər Mərkəzinin, Gənclər Fondunun və Gənclər Evinin yaradılması, gənc ailələrin dəstəklənməsi, ipoteka şərtlərinin sadələşdirilməsi və s. gəncliyin daha həvəslə çalışmasına və dövlətçiliyin müdafiəsində fəal iştirakına əlavə stimul verdi.

Eyni zamanda, Azərbaycan Respublikasının vitse-prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın da gəncələrə xüsusi qayğısı qeyd olunmalıdır. Məhz, birinci xanımın sədrliyilə Bakıda "Gənclərin məşğulluq sammiti"nin keçirilməsi həmin diqqətin əyani isbatıdır.

Təkzibolunmaz faktdır ki, gənclərimizin həm Azərbaycanda, həm də xaricdə dəstəklənməsində Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın da xüsusi rolu var. Elə "Rusiyanın Azərbaycanlı Gənclər Təşkilatı" çoxşaxəli fəaliyyətilə gənclərimizi milli maraqların qorunması məqsədi ətrafında sıx birləşdirir və Azərbaycan haqqında həqiqətləri dünya ictimaiyyətinin diqqətinə çatdırır.

Göründüyü kimi, yürüdülən gənclər siyasətinin nəticəsidir ki, bu gün Azərbaycan gəncləri cəmiyyətin inkişafında, sosial təbəqə kimi demokratikləşmə prosesində fəal iştirak edir, mədəniyyət, incəsənət, iqtisadiyyat və digər sahələrdə nailiyyətlər qazanır, dövlətçiliyin möhkəmləndirilməsi prosesində yaxından iştirak edirlər.

Artıq Azərbaycanda yüksək intellektual səviyyəyə, vətənpərvərlik hissinə, milli düşüncəyə malik gənc nəsil formalaşıb. Azərbaycan gənclərinin ölkənin ictimai-siyasi həyatında rolu günü-gündən artır. Hazırda respublikada mövcud olan yüzlərlə qeyri-hökumət və gənclər təşkilatlarının fəaliyyəti dövlətin yaratdığı şərait sayəsində mümkün olub. Məhz dövlətin gənclərə dəstək və diqqət göstərməsinin nəticəsində Azərbaycan gəncliyində özünə, öz gücünə, istedadına inam hissi artıb. Bu illər ərzində gənclərimiz iştirak etdikləri beynəlxalq olimpiadalarda və idman yarışlarında yeni-yeni qələbələrlə ölkəmizin şərəfini ucaldıblar.

Gənclərin mənəvi-əxlaqi və hərbi vətənpərvərlik tərbiyəsi, onların ordu sıralarında xidmətə hazırlanması işinin gücləndirilməsi məqsədilə Gənclər və İdman Nazirliyi, orta təhsil müəssisələri və hərbi qurumlarla birlikdə tədbirlər keçirirlər. 1995-ci ildən etibarən orta ümumtəhsil məktəblərinin X-XI sinif şagirdləri arasında "Şahin" hərbi-idman oyunları, 1998-ci ildən isə VII-IX sinif şagirdləri arasında "Cəsurlar" hərbi-idman və turizm oyunları keçirilir.

*Azərbaycanın müstəqilliyini qorumaq hər bir Azərbaycan gəncinin müqəddəs borcudur*

Cəmiyyətimizin ayrılmaz hissəsi olan Azərbaycan Ordusu sıralarında öz konstitusion borcunu - Vətənin müdafiəsi kimi müqəddəs bir vəzifəni şərəflə yerinə yetirən şəxsi heyətin böyük əksəriyyətini gənclər təşkil edir. Ümummili lider Heydər Əliyevin "Ordu xidməti çox böyük fədakarlıq tələb edir, cəfakeşlik tələb edir. Ölkəmizin hər bir gənci, Azərbaycan xalqına, millətinə mənsub olan hər bir gənc öz şərəfli borcunu mütləq yerinə yetirməlidir, orduda xidmət etməlidir. Orduda xidmət edib, sonra tərxis olan gənc bizim cəmiyyətdə də, həyatımızın bütün sahələrində də ən dəyərli insan hesab olunur" sözləri dövlətin ordu gənclərinə diqqətinin və qayğısının təzahürüdür.

Gənc nəslin məhz hərbi vətənpərvərlik ruhunda tərbiyə olunması xalq və dövlət qarşısında duran ən mühüm vəzifələrdən biridir. Bu vəzifələrin yerinə yetirilməsi istiqamətində Azərbaycan Ordusunda geniş tədbirlər həyata keçirilir. Bu baxımdan təkcə 2017-ci il ərzində Bakı şəhərində və rayonlarda dövlət qurumları və ictimai təşkilatlarla birlikdə Müdafiə Nazirliyi tərəfindən hərbi vətənpərvərlik mövzusunda keçirilmiş kütləvi tədbirlər, ordu, səngər həyatı ilə cəmiyyətin, xüsusən onun aparıcı qüvvəsi olan gənc nəslin yaxından tanış edilməsi üçün kütləvi informasiya vasitələrinin, Qeyri-Hökumət Təşkilatlarının və ictimaiyyət nümayəndələrinin hərbi hissələrə, cəbhə xəttinə ziyarətləri gənc nəslin mübariz ruhda yetişdirilməsində mühüm əhəmiyyət kəsb etmişdir. Azərbaycan gənclərinə günü-gündən artan dövlət qayğısı nəticəsində bu gün orduda vətənpərvər, mənəviyyatca saf, fiziki cəhətdən sağlam gənclər xidmət edirlər. 2016-ci ilin aprelində təmas xəttində düşmənin hər cür təxribatına inamla cavab verən Azərbaycan əsgərinin hər an, hər dəqiqə xalqın dəstəyini hiss etməsi, gənclərimizin bir nəfər kimi Vətən torpağının müdafiəsi uğrunda mübarizəyə hazır olmasını əyani şəkildə nümayiş etdirməsi, gənclərə münasibətdə Heydər Əliyev kursunun, İlham Əliyev siyasətinin təntənəsidir.

Bu gün Azərbaycan Ordusunun qarşısında respublikamızın ərazi bütövlüyünün bərpa edilməsi kimi müqəddəs bir vəzifə durur. Bu vəzifəni yerinə yetirəcək insanlar isə birinci növbədə Azərbaycanın vətənpərvər gəncləridir.

**Müdafiə Nazirliyi Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsi**

# 20 Yanvar - qəhrəmanlıq tariximiz

## Ümummilli lider Heydər ƏLİYEV:

*XX əsr tarixində totalitarizmin törətdiyi ən qanlı terror aktlarından biri olan 20 Yanvar faciəsində Azərbaycan xalqına qarşı işlədilmiş cinayət, əslində, bəşəriyyətə, humanizmə, insanlığa qarşı həyata keçirilmiş dəhşətli bir əməldir... 1990-cı ilin Qanlı Yanvarında Azərbaycanın azadlığı və müstəqilliyi uğrunda şəhidlik zirvəsinə ucalmış Vətən övladları özlərinin fədakarlığı, şəhidliyi ilə xalqımızın qəhrəmanlıq salnaməsinə parlaq səhifələr yazdılar. Bu gün də Azərbaycan xalqı onun milli mənliyini qorumaq üçün öz canlarından keçməyə hazır olan övladları ilə fəxr edir.*







Şəhid - bu söz özündə nə qədər ülvi bir hiss, məna ifadə edir. Şəhidlər öz şücaətləri ilə adlarını tarixə yazdıran şəxslərdir. Günlərin birində belə bir ifadə eşitdim: "Şəhid olan yoldaşımın kimliyində Vətən gedir". Necə də qürurverici bir haldır. Məktəb vaxtlarımızdan da eşitmişik ki, şəhidlik əlçatmaz bir zirvədir. Mən indi-indi bu ifadənin nə olduğunu anlayıram.

Keçirdiyimiz hər bir an, hər bir saniyə ötən bir tarix olur. Tarix kitabının səhifələrini isə yaddaqalan hadisələrlə doldurmaq elə də asan deyil. Bu şanlı tarixi yaradanlar həm də şəhidlərdir. Azadlığımızı canı ilə qazanıb qanı ilə yazanlardır şəhidlər. Vətən, azadlıq yolunda candan keçənlər heç zaman ölmürlər, daim ürəklərdə və yaddaşlarda yaşayırlar. Vətən üçün ölüm səadətdir. Belə qüdrətli ölüm Vətənə olan sədaqətdir.

Bəzən insana ağır gəlir ki, demək olar hər gün gördüyü insanı bir anda itirir. Ancaq yox! Şəhidlər ölmürlər. Azadlığımız, müstəqilliyimiz onların sayəsindədir. Məhz onların sipər verdiyi sinələri sayəsində müstəqillik zirvəsini tanıdıq. Zəncirləri qırdıq, buxovdan azad olduq.

Bizim tarix kitabımızın şanlı səhifələrindən biri də 20 Yanvardır. 1990-cı ilin 20 yanvar gecəsi. İnsanlar bu tarixi "Qanlı Yanvar" da adlandırırlar. Həmin dövrdə Azərbaycan milləti də əsarətdən, haqsızlıqdan, buxovdan cana doymuşdu. Bu duruma son qoymaq vaxtı yetişmişdi. Xalq ayağa qalxdı və azadlığını tələb etdi. İmperiya ayağa qalxmış xalqı susdurmağa çalışdı, ağır texnikaları ilə əliyalın xalqa hücum etdi. Lakin biz qorxmadıq, savaşdıq. Güllə səsləri hər yana yayılır, körpələr, uşaqlar səsdən diksinir, gənclər, igidlər şəhid olurdu. Bu yolda çox itki verməli olduq. Məktəbli Larisa Məmmədova, Ülvi Bünyadzadə və nə qədər belə gəncimizi itirdik.

Biz həmişə onlarla fəxr edirik.

Şəhidlər bizim həm kədərimiz, dərdimiz, nisgilimiz, həm də baş ucalığımız, fəxrimizdirlər.

Bayraqları bayraq edən üstündəki qandır,
Torpaq, əgər uğrunda ölən varsa, Vətəndir!

**Hüsniyyə İDRİSOVA,**
**BSU-nun Azərbaycan filologiyası və jurnalistika fakültəsinin tələbəsi**

## 20 Yanvar şagirdlərin dili ilə...

*Zaman ötür. İllər əsrlərə, əsrlər minilliklərə - tarixə çevrilir. Zaman axımında baş verən tarixi hadisələrin bəziləri müəyyən dövrdən sonra yaddan çıxır, unudulur, amma elə hadisələr də var ki, xalqın, millətin yaddaşında əbədiləşir.*

20 Yanvar xalqımızın tarixində təkcə faciə deyil, həm də istiqlal mücadiləsinin qələbəsi, milli məfkurəmizin azadlıq istəyinin oyanış günüdür. Sovet imperiyasının əsarətində yaşamağa məhkum olan xalqın azadlıq səsini ucaltdığı, öz suverenliyi uğrunda cəsarət nümayiş etdirdiyi şərəfli bir tarixdir 20 Yanvar. 28 ildir Azərbaycan xalqı bu günü, Vətənimizin azadlığı və suverenliyi uğrunda qurban getmiş mərd oğul və qızlarının xatirəsini dərin hörmət və ehtiramla yad edir.

Paytaxtın Nəsimi rayonunda yerləşən Milli Qəhrəman Abdulla Rəhimov adına 247 saylı tam orta məktəbdə gənclərimizin vətənpərvərlik tərbiyəsi ilə bağlı yazı hazırlayarkən tarix müəllimi Günay Allahverdiyeva 20 Yanvar faciəsi ilə bağlı keçirilən dəyirmi masaya bizi də dəvət etdi.

Masa ətrafında söhbətə məktəbin qabaqcıl müəllimi 40 il qul kimi yaşamaqdansa, bircə gün azad yaşamağı üstün tutan Babəkin "Azadlıq verilmir, alınır" ifadəsi ilə başlayaraq bildirdi ki, 20 Yanvar Azərbaycan xalqının mərdlik, qəhrəmanlıq və şəhidlik zirvəsidir. "Hər il həmin gün məktəbimizin şagirdləri Şəhidlər xiyabanına yürüş aksiyası keçirirlər. Yürüşün önündə gedən şagirdlər üçrəngli bayrağımızı aparırlar. Keçən ilki yürüşdə sözlərlə ifadə olunmayacaq bir hadisə ilə çox qürurlandıq: şagirdlərimiz Şəhidlər xiyabanına çatanda izdiham bir anlıq dayandı. Üçrəngli bayrağımıza yol verildi. Bu hadisə oradakı media nümayəndələri tərəfindən də işıqlandırıldı. O anı əks etdirən şəkillər televiziya kanallarından birində və AZƏRTAC-da ilin ən yaxşı fotosu seçilmişdi. Həmin faciəli günlərdə ölkəsinin, xalqının azadlığını, şərəf və ləyaqətini hər şeydən uca tutan mərd oğul və qızlarımızın Vətən sevgisi gənclərimizə örnəkdir".

Fürsətdən istifadə edib tədbirə qatılan şagirdlərin fikirlərini də qələmə alıram.

**Şahin Quliyev:** "Ümummilli liderimiz Heydər Əliyevin "20 Yanvar faciəsi mənim üçün xalqımızın ən ağır faciəsidir. Amma eyni zamanda 20 Yanvar Azərbaycan xalqının mərdlik, qəhrəmanlıq və şəhidlik zirvəsinə qalxmasının əyani nümayişidir" kəlamı məni də duyğulandırır. Doğrudan da, 20 Yanvar şəhidləri Azərbaycanın tarixinə parlaq səhifələr yazaraq xalqın milli azadlığı naminə öz canlarını qurban veriblər".



**Aytac Qurbanlı:** "20 Yanvar gecəsi Bakıda Sovet ordusu tərəfindən dinc əhaliyə qarşı dəhşətli, kütləvi qırğın törədilib. Məktəbimizdə hər il yanvar şəhidlərinin anım günü və yürüş aksiyası keçirilir. Tədbirdə qanlı gecənin canlı şahidləri ağrılı-acılı xatirələrini bizimlə bölüşürlər. Biz o hadisələri bir an belə unutmuruq".

**Fərid Baxşəliyev:** "Bakıda və rayonlarda 146 nəfər öldürülüb, 744 nəfər yaralanıb, 841 nəfər qanunsuz həbs olunub. Həlak olanların arasında qadınlar, uşaqlar və qocalar, həmçinin təcili yardım işçiləri və polis nəfərləri olub. Sonradan araşdırmalar aparan Moskvadakı "Şit" ("Qalxan") adlı müstəqil hərbi qrup belə bir nəticəyə gəlib ki, Sovet ordusu şəhərin əliyalın sakinlərinə qarşı əsl müharibə aparıb".

**Arzu Abbaslı:** "20 Yanvar faciəsinin şəhidlərini daim böyük ehtiramla yad edirik. Hər dəfə Şəhidlər xiyabanını ziyarət edib, məzarları üstünə tər qərənfillər düzərkən düşünürəm ki, canları bahasına əldə edilən müstəqilliyimizi qorumaq üçün hər bir kəs öz məsuliyyətini dərindən dərk etməlidir".

**Nihat Namazov:** "Həmin faciəli günlərdə ölkəsinin, xalqının azadlığını, şərəf və ləyaqətini öz həyatından uca tutan, xalqının səsinə hər kəsdən əvvəl səs verən ümummilli liderimiz Heydər Əliyev oldu. Ulu Öndər 1990-cı il yanvarın 21-də Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək təcavüzə kəskin etirazını bildirdi, faciəni törədənləri kəskin ittiham etdi. Ulu Öndərin həmin bəyanatı həm də faciəyə verilən ilk siyasi qiymət idi..."

**Aidə Əliyeva:** "Sovet ordusunun xalqımıza qarşı həyata keçirdiyi hərbi təcavüzün insanlığa qarşı törədilmiş ən ağır cinayətlərdən biri olduğu, milli azadlıq və ərazi bütövlüyü uğrunda mübarizəyə qalxmış yüzlərlə günahsız insanın qətlə yetirildiyi və yaralandığı, lakin bu yolda tərəddüd keçirmədikləri haqqında mənim də kifayət qədər məlumatım var. Bütün şəhidlərimizi ehtiramla yad etmək borcumuzdur".

**İbrahim Hüseynov:** "Vətən öz şəhidlərini heç vaxt unutmayacaq. Bakının ən yüksək nöqtələrindən birində hər bir azərbaycanlı üçün müqəddəs and yerinə çevrilmiş bir yer var. 20 Yanvar qurbanlarının və ərazi bütövlüyümüz uğrunda döyüşlərdə həlak olanların dəfn edildiyi Şəhidlər xiyabanı. Hər zaman bu ünvanı sadəcə urək ağrısı, göz yaşları ilə deyil, həm də qürurla, fəxrlə ziyarət edirik".

**Ülkər Əsgərzadə:** "1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə azğınlaşmış Sovet ordusu Azərbaycan xalqına qarşı terror aktı həyata keçirdi. Xalqımız bu faciə qurbanlarını yad etməklə onların şəhidlik zirvəsinə baxaraq başını dik tutmalıdır. Çünki Vətən və torpaq şəhidləri ilə ucalır".

**Günel Qasımova:** "O müdhiş gecədə şəhid olanlar Azərbaycanın tarixinə parlaq səhifə yazdılar. Xalqın milli azadlığı, müstəqilliyi və firavan həyatı üçün yol açdılar. Bu yolu açanların sırasında 13 yaşlı Larisa və İlqar, 14 yaşlı Nəriman, 16 yaşlı Vera da var idi. Bu şəhidlik təsdiq edir ki, insanın iç dünyasında yetişən Vətən sevgisi hər şeydən üstündür..."

**Xumar Mehdizadə:** "1990-cı ilin 20 Yanvarı Azərbaycan xalqının hüzn və şərəf günüdür. O gün Azərbaycanın azadlığı və ərazi bütövlüyü uğrunda mübarizə tarixinə qəhrəmanlıq səhifəsi kimi daxil oldu..."

**İsmayıl İsmayılov:** "Yanvar qırğını nə qədər faciəli olsa da, Azərbaycan xalqının iradəsini, milli azadlıq uğrunda mübarizə əzmini qıra bilmədi. Həmin gecədə həlak olan Vətən oğulları Azərbaycanın tarixinə parlaq səhifə yazdılar".

*Məktəblilərin fikirlərini eşitdikcə düşünürdüm: gənclərimiz Vətənin azadlığı və müstəqilliyi uğrunda canlarından keçmiş oğul və qızlarımızı heç zaman unutmayacaq, onları daim dərin ehtiramla yad edəcəklər. Bakının sadəcə məkan olaraq deyil, həm də mənən ən yüksək zirvəsində salınmış Şəhidlər xiyabanı əsrlər keçsə də xalqımızın əbədi ziyarətgahı olacaq. Burada alovlanan əbədi məşəl heç vaxt sönməyəcək. Bu məşəl öz odunu, alovunu şəhidlərimizin Vətənə, torpağa sevgisindən, azadlıq eşqindən götürür. İllər ötəcək, nəsillər dəyişəcək, lakin şəhidlərimizin xatirəsi ürəklərdə əbədi yaşayacaq, onlar heç vaxt unudulmayacaq.*

**Leytenant**
**Günay TAĞIYEVA,**
**"Azərbaycan Ordusu"**

AZƏRBAYCAN ORDUSU



*Vətənpərvərlik*

# Ən ülvi duyğudur Vətən sevgisi...

*"Vətən" və "vətənpərvərlik" kimi müqəddəs anlayışların mənasını kursantlara aşılamaq biz müəllimlərin öhdəsinə düşür. Kursantlara Vətəni sevmək, Vətənə bağlılıq, vətənpərvərlik və milli qürur hissinin aşılanmasına səy göstərirəm. Vətən məhəbbəti, Vətəni sevmək ən ülvi hissdir. Vətəni sevmək Tomris mərdliyini, Cavanşir yenilməzliyini, Dədə Qorqud hikmətini, Nizami poeziyasını, Tusi elmini, Füzuli kədərini, Koroğlu cəngisini, Xətai qılıncını, qələmini, Babək cəsarətini, Nəsimi qətiyyətini, Üzeyir musiqisini, Səməd Vurğun şeiriyyətini sevmək deməkdir.*

Vətənpərvərlik ana laylalarıyla başlayır. Körpə böyüdükcə onun torpağa, elə-obaya bağlılığı, Vətənə əsgər olmağın ülviliyi haqqında düşüncələri daha da dolğunlaşır.Vətənpərvərlik tərbiyəsi, hər şeydən əvvəl, Vətəni dərin məhəbbətlə sevmək və onun mənafeyini qorumaqdır. Bunların yerinə yetirilməsində əsas vasitələrdən biri təlim-tərbiyə prosesidir. Təlim kursantlara yalnız bilik, bacarıq və vərdişlər aşılamır, həm də onları vətənpərvərlik ruhunda tərbiyə edir. Vətənə, doğma torpağa məhəbbət nağıllarımızda, dastanlarımızda, atalar sözlərində, bayatılarda da yaşadılır. Vətən torpağının müqəddəsliyi, onun yağılardan qorunmasının vacibliyi dastanlarımızın əzəli ulusu "Dədə Qorqud"da böyük məhəbbətlə tərənnüm edilir. Vətən ana ilə bərabər tutulur. Oğuz igidləri "Vətən haqqı ana haqqıdır" - kəlamının işığında Vətənin keşiyində ayıq-sayıq dayanıb, onu göz bəbəyi kimi qoruyurlar.

Dahi Azərbaycan şairi Nizami Gəncəvi Gəncəni özünə qızıl boyunbağı saydığına görə heç yerə getməmiş və təsadüfi deyildir ki, Vətən məhəbbəti, yurd sevgisi onu öz doğulduğu məkandan ayrılmağa qoymamışdır.

Vətən doğma evin kandarından başlanır. Hər bir kursant başa düşür ki, onun yaşadığı və təhsil aldığı yer Vətənin bir parçasıdır. Vətəni qorumaq hamımızın borcudur.

Vətən bizim varlığımızdır, fəxrimizdir, qürurumuzdur. Neçə-neçə qəhrəmanımız torpaqlarımız uğrunda canlarından keçib. Vətən uğrunda, onun azadlıq və istiqlaliyyəti yolunda canını qurban verən qəhrəmanlar heç vaxt unudulmur, ölümsüzlüyə qovuşurlar.

Torpaq-uğrunda ölən varsa, Vətəndir!

Vətənə sadiq olmaq, Vətəni sevmək, torpağa bağlı olmaq - budur vətənpərvərlik! Vətənpərvər olan şəxs Vətənini sevən, ona sadiq, torpağına, millətinə bağlı olan, bütün mənəvi sərvətlərə malik hərtərəfli şəxsdir.

Səməd Vurğunun bir kəlamını xatırlayaq: "Mənsub olduğu xalqın varlığı ilə fəxr etməyən, onun eşqini müqəddəs bir məşəl kimi öz qəlbində yandırmayan bir insan öz vətəndaşlıq hissini dərk edə bilməz, ona vətənpərvər demək də gülünc olar..."

"Öncə Vətən, ikinci xalq, sonra mən" kəlamı hamımızın həyat amalıdır.

Vətən yalnız üstündə gəzib, qayğısız ömür sürmək, sərvətlərinə, gözəlliyinə baxıb qürrələnmək üçün bir məkan deyil. Biz Vətənimizlə qürur duyduğumuz kimi, həm də onu böyük məhəbbətlə sevirik və onun qarşısında özümüzü borclu sanırıq. Ünlü şairimiz Məmməd Araz Vətən övladlarının doğma Azərbaycana bəslədikləri sonsuz sevgini, əbədi minnətdarlıq hissini ümumiləşdirərək yazmışdır:

***Vətən mənə oğul desə, nə dərdim,***
***Mamır olub qayasında bitərdim.***

Bu misralarda ifadə olunan fikir hər birimizin qəlbinə və düşüncəsinə hakim kəsilib.

Axı Vətən təkcə yurd deyil. Vətən mənəm, Vətən sənsən, Vətən bizik. Vətənin dünəninə, bu gününə, sabahına hamımız cavabdeh olmalıyıq. Vətənpərvər, Vətənini, yurdunu sevən, dövlət atributlarına hörmətlə yanaşan, onu qoruyan, hər vaxt üçrəngli bayrağını uca tutan cəsur oğullar millətin qürur mənbəyidir.

Müasir dövrümüzdə Vətənimizin gələcəyi Hərbi liseydə təhsil alan, hərbi anda sadiq olan kursantlarımızın düşüncə tərzi, intellektual səviyyəsi, milli ruhda tərbiyə alması kimi vacib amillərdən də asılıdır.

Atalar sözlərimizdə də Vətən haqqında çox ibrətamiz fikirlər var: "Gözsüz yaşamaq olar, Vətənsiz yox", "Vətənin bir qışı qürbətin yüz baharından yaxşıdır", "Vətənə gəldim, imana gəldim", "Yad ocağın alovundan Vətən ocağının tüstüsü gözəldir", "Hər quşa öz yuvası şirin olduğu kimi, hər insana da öz Vətəni şirindir", "Vətən viranə də olsa, cənnətdir", "Vətən elin evi, dayağıdır".

O insan vətənpərvərdir ki, doğma Vətənini müdafiə etsin, mədəniyyətinin, adət-ənənələrinin qorunmasının cəfakeşi olsun, bayrağını uca tutsun.

Biz Vətənə borcumuzu bu gün gələcəyin zabiti olan kursantlarımıza dərin bilik verməklə də olsa qismən yerinə yetiririk. Onlar isə öz növbələrində Azərbaycan Ordusunda nümunəvi xidmət etməklə, işğal olunmuş torpaqlarımızı azad etməklə öz ali məqsədlərinə çatacaqlar. Bu yolda addımlamaq bizim üçün şərəfli iş, vətəndaşlıq borcudur. Vətən bizdən bu gün hünər və rəşadət gözləyir...

**Laləzar HƏSƏNOVA,**
**C.Naxçıvanski adına**
**Hərbi Liseyin**
**müəllimi**

# Əsgərlər asudə vaxtda...



Bu gün dünyanın aparıcı dövlətlərinin orduları ilə rəqabət aparmaq imkanı olan, milli təhlükəsizliyimizi, əmin-amanlığımızı təmin edən, sərhədlərimizi qoruyan Azərbaycan Ordusunda şəxsi heyətin döyüş və mənəvi-psixoloji hazırlığı yüksək səviyyədədir. Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli dövlətimizin siyasi kursunda başlıca prioritet kimi diqqətdə saxlanılmasına baxmayaraq ordu quruculuğu prosesi uğurla davam etdirilir, müasir silah-sursat alınır, əsgər və zabitlərimizin döyüş qabiliyyətinin artırılmasına fikir verilir.

Bütün bunlarla yanaşı şəxsi heyətin asudə vaxtının təşkili də diqqətdədir. "Silahlı Qüvvələrdə ən yaxşı özüyeriyən artilleriya divizionu" adı uğrunda keçirilən yarışın nəticələrini işıqlandırmaq məqsədilə üz tutduğumuz "N" hərbi hissəsində şəxsi heyətin asudə vaxtının maraqlı və səmərəli keçdiyinin də şahidi oluruq.

Yarışı izlədikdən sonra kapitan Azad Cəfərovla şahmat oynamaq imkanı qazanırıq. Zabitdən şəxsi heyətin asudə vaxtının necə təşkil edilməsi ilə maraqlanırам. Onun sözlərinə görə, asudə vaxtın səmərəli və maraqlı keçməsi də vacib şərtdir. "Əsgərlərin fiziki, istərsə də psixoloji sağlamlığı nöqteyi-nəzərindən onların asudə vaxtlarının səmərəli təşkil olunmasına şərait yaratmağa borcluyuq. Çünki əsgərlərin əxlaqi və estetik tərbiyəsinin inkişafında istirahətin özünəməxsus yeri var və asudə vaxt onlarda xoş təəssürat, gözəl əhval-ruhiyyə yaradır".

Söhbətimizin bu yerində uzaqdan gələn həzin musiqi ruhumuzu oxşayır. Zabit Azad Cəfərovla yataqxanaya daxil oluruq və "Cənab leytenant", "Marş irəli", "Vətən əmanəti", "Qələbə", "İgidlər" kimi mahnıları könül xoşluğu ilə dinləyirik.

İlk həmsöhbətim gitara ifaçısı əsgər Babək Baxşəliyev olur. Əsgər bildirir ki, Cəlilabad rayonunda dünyaya göz açmağına baxmayaraq, Şəmkir rayonunda böyüyüb və gitaranın sirlərini də orada öyrənib: "Əvvəldən musiqiyə sevgim böyük idi. Bir dəfə rayon mərkəzində bir elana rast gəldim və kursa yazıldım. Bir neçə mahnı öyrəndikdən sonra gitara alətinə marağım artdı. Artıq 6 aydı Vətən qarşısında olan borcumu yerinə yetirirəm. Burada hərbin sirlərinə yiyələnləmməklə yanaşı, asudə vaxtımızda sevimli musiqi alətimdə də ifa edirəm. Bilirsiniz, elə mahnılar var ki, onlar uzun müddət yaddaşda qalır. Bu baxımdan vətənpərvərlik ruhunda yazılan mahnıların xüsusi yeri var. Belə mahnıları dinlədikdən sonra hər birimizin qəlbində Vətən sevgisi artır".

Əsgər Ramil İsmayılov söhbətə qoşularaq bildirir ki, asudə vaxtlarımızda təkcə musiqiyə qulaq asmırıq: "Hər bir əsgərin öz maraq dairəsi var. Kimi qəzet oxuyur, kimi futbol, voleybol, basketbol oynayır və s. Əsgər yoldaşlarımızdan elələri var ki, yaxşı rəsmlər yaradır. Şəxsən mən özüm idmanı daha çox sevirəm".

Əsgərlər Asəf Həsənov və Yusif Ağayev isə bildirirlər ki, maraq dairəmizin müxtəlif olmasına baxmayaraq, içimizdə əvəzedilməz, dəyişməz, əbədi, müqəddəs bir sevgi var - Vətən sevgisi. Əsgərlər doğru deyir ki, Vətən varsa yaşamaq da var, Vətən yoxdursa, nə yaşamağın, nə yaratmağın, nə də musiqiyə qulaq asmağın mənası var!

**Kapitan**
**Məhəmməd ƏLİYEV,**
**"Azərbaycan Ordusu",**
**foto**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**

# "Perspektivi olmayan Ermənistanda insanlar çıxılmaz vəziyyətdə qalıblar"

Ermənistanda əhali 2018-ci ildə yaxşı heç nə gözləməsin. Maksimum dərəcədə qənaət etmək lazımdır. Çünki ölkənin valyuta ehtiyatları tükənir.

AZƏRTAC xəbər verir ki, bu fikri erməni iqtisadçı Artak Manukyan söyləyib. O qeyd edib ki, Ermənistanda yoxsulluq pik həddədir, miqrasiya tempi isə əvvəlkindən də yüksəkdir. Əhali iş tapa bilmir. Həyat səviyyəsi ildən-ilə aşağı düşür. Hökumət vətəndaşların rifahı üçün heç bir cəhd göstərmir. Perspektivi olmayan Ermənistanda insanlar çıxılmaz vəziyyətdə qalıblar. İldən-ilə hökumətin xarici borcları da artır. Hakimiyyət xərclərini ört-basdır etmək, büdcədəki kəsrin qarşısını almaq üçün yeni kreditlər almaq niyyətindədir. Bununla isə Ermənistanın dövlət borcu 7 milyard dolları keçə bilər.

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu çavuş Musayev Elgün Musa oğluna 2011-ci ildə verilmiş şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

**Baş redaktor**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik
Şəfaət Mehdiyev küçəsi 144,
"Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
kapitan
Məhəmməd ƏLİYEV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 13
Nüsxə 3550